

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 109 (23.020)

9 iyun 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib.

Yan Zahradil rəhbəri olduğu alyansın Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirdiyini, Çexiya-Azərbaycan ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında saziş və bəyannamələrin qəbul edilməsi və imzalanmasının önəmini vurğulayıb. Prezident İlham Əliyev sabah Bakıda keçiriləcək tədbirin paytaxtımıza gələn çoxsaylı qonaqların Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə edib.

* * *

Prezident İlham Əliyev iyunun 8-də Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətini qəbul edib.

## M.A.Əliyevin Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mayis Abazər oğlu Əliyev Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyun 2018-ci il*

## H.S.Yaqubovun Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hafiz Səyavuş oğlu Yaqubov Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 iyun 2018-ci il*

## İxracın artımı iqtisadi gücün əsas göstəricisidir

Son illər muxtar respublikada həyata keçirilmiş iqtisadi siyasət nəticəsində mühüm nailiyyətlər əldə olunub, iqtisadiyyat şaxələndirilib, yeni məhsul növlərinin istehsalı təmin edilib.

Muxtar respublikanın kompleks inkişafının təmin olunmasında qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər), Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası ümumi inkişafa stimul verib.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2017-ci ildə muxtar respublikada 2 milyard 701 milyon 663 min manat dəyərində ümumi daxili məhsul istehsalı qeydə alınıb ki, bu da 2007-ci ildəki göstəricidən 5 dəfə çoxdur. Bu dövrdə sənaye məhsulu 7,9, kənd təsərrüfatı məhsulu 3,7 dəfə artıb.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, 2017-ci ilin sonuna muxtar respublikada 372 növdə məhsul istehsal olunub. Onların 125 növü ərzaq, 247 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilib.

İstehsal edilmiş keyfiyyətli yerli məhsullar daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialına da müsbət təsir göstərib. Mühüm hadisə kimi ilk dəfə 2009-cu ildə muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo yaranıb. Xarici ticarət dövriyyəsinin 51 faizini ixrac, 49 faizini isə idxal təşkil edib.

Muxtar respublikanın ixrac potensialının artırılmasında son dövrlərdə müasir gömrük sisteminin yaradılması da mühüm rol oynayıb. Belə ki, 2007-ci ildən başlayaraq ötən dövrdə Culfa və Şahtaxtı Gömrük idarələrinin yeni sərhəd-keçid kompleksləri, Naxçıvan Şəhər Gömrük İdarəsi üçün yeni kompleks, Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi və "Naxçıvanterminalkompleks" Birliyi üçün müasir gömrük infrastrukturları istifadəyə verilib, Sədərək Gömrük İdarəsi üçün yeni sərhəd-keçid kompleksinin inşası hazırda davam etdirilir.

İqtisadi və sosial sahələrdə qazanılmış uğurların nəticəsi olaraq muxtar respublikanın xarici ticarət dövriyyəsi 2017-ci ildə 459 milyon 888 min 800 ABŞ dolları təşkil edib ki, bu da 2007-ci ildəki göstəricidən 5 dəfə çoxdur. Xarici ticarət dövriyyəsinin 423 milyon 320 min ABŞ dollarını, yaxud 92 faizini ixrac, 36 milyon 568 min 800 ABŞ dolları, yaxud 8 faizini idxal təşkil edib. Ümumi ixracın 76 faizi sənaye, 24 faizi isə kənd təsərrüfatı məhsullarının payına düşüb. 2007-ci illə müqayisədə 2017-ci ildə ixracın həcmi 18,5 dəfə artıb, idxalın həcmi isə 47,2 faiz azalıb.

*İxrac olunmuş məhsulların dəyəri, min ABŞ dolları*




Qarşılıqlı razılaşmaya əsasən muxtar respublikada istehsal edilən və ya istehsal potensialı olan bəzi sənaye və kənd təsərrüfatı məhsullarına Türkiyə Respublikasına sərbəst ticarət imkanının verilməsi ixrac potensialımızı daha da gücləndirəcəkdir.

Son illərdə ixracın səviyyəsindəki artım iqtisadiyyatın şaxələndirilməsi və yerli məhsulların xarici bazarlara çıxarılması istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində mümkün olub.

Muxtar respublikanın dinamik inkişafı istiqamətində cari ilin ötən dövründə istifadəyə verilən və hazırda yaradılması davam etdirilən istehsal sahələri artan əhali tələbatına uyğun olaraq daxili tələbatı tam ödəməklə yanaşı, ixrac potensialımızın daha da artmasına imkan yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Həştərxana ixrac missiyası təşkil olunub







"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən 2018-ci ilin ilk ixrac missiyası Rusiyanın Həştərxan vilayətinə təşkil olunub. İxrac missiyasına ölkəmizdə emal və kənd təsərrüfatı, yüngül sənaye, tikinti və digər sahələrdə fəaliyyət göstərən 30-dan çox yerli şirkətin nümayəndəsi daxildir.

Nümayəndə heyətinin tərkibində muxtar respublikada fəaliyyət göstərən "Gəmiqaya Mineral Sular" MMC-nin və Babək "Sirab" ASC-nin nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində "Made in Azerbaijan" brendi altında Azərbaycan Respublikasında istehsal olunmuş məhsulların sərgisi keçirilib. Sərgidə Babək "Sirab" ASC-nin istehsal etdiyi 12 çeşiddə "Sirab", 10 çeşiddə isə "Badamlı" mineral suları nümayiş olunub.

Missiya çərçivəsində Həştərxanda Azərbaycan və Rusiya şirkətləri təmsilçilərinin ikitərəfli görüşü keçirilib. Rusiya şirkətinin nümayəndələrinin də iştirak etdiyi görüşdə Azərbaycan məhsulları barədə məlumat verilib, iqtisadi-ticarət əlaqələrinin, xüsusilə ixracın genişləndirilməsinə dair müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Mütəxəssislər üçün kurs keçirilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində hərbi hissələrdə çalışan maliyyə və mühasibat işçiləri üçün "Büdcə təşkilatlarında praktik mühasibatlıq" mövzusunda təkmilləşdirici kurs keçirilib. Kursda Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 23 əməkdaşı iştirak edib. Üç gün ərzində keçirilən kursda hərbi hissələrdə maliyyə-mühasibat işinin aparılması, xərclərin formalaşdırılması və ödənilməsi mexanizminin təkmilləşdirilməsi, hərbi qulluqçuların istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın hesablanması qaydaları, hərbi hissələrdə vergi uçotunun təşkili, xəzinə əməliyyatlarının aparılması və ümumi maliyyə intizamının daha da yaxşılaşdırılması mövzuları üzrə təlimlər keçirilib.

Kurs çərçivəsində Maliyyə Nazirliyinin əməkdaşları Sənan İmanov, Ülvi Cəfərov və Məmmədnağı Əkbərovun, Naxçıvan şəhər Maliyyə şöbəsinin müdiri Ramil Kərimovun, Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərovun müvafiq mövzular üzrə elektron vəsaitlərdən geniş istifadə olunmaqla hazırlanmış mühazirələri dinlənilib. Hər kurs gününün sonunda iştirakçılara sorğu anketləri paylanılıb.

Sonuncu gün keçirilmiş təlimlərlə bağlı praktik tapşırıqlar verilib, mübahisə yaradan mövzular iştirakçılarla birlikdə həll edilib.

Kursun yekununda iştirakçılara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

İcmal

# Ulu öndər Heydər Əliyevin ideyalarına sədaqət Naxçıvanı yeni inkişaf mərhələsinə yüksəldib

## *Ötən ayın nəticələri bir daha belə deməyə əsas verir*

***Regionun lider dövlətinə çevrilən müstəqil Azərbaycan Respublikasının, sosial-iqtisadi inkişafı ilə diqqətləri cəlb edən, yüksək potensiala malik Naxçıvan Muxtar Respublikasının bugünkü mövcudiyyəti və inkişafı görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır. Milli dövlətçiliyimizin formalaşmasında, xalqımızın Qurtuluşuna gedən yolda Onun fəaliyyətinin Naxçıvan dövrü isə xüsusi əhəmiyyətə malikdir.***

Belə ki, dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən müstəqil dövlət quruculuğu prosesini məhz Naxçıvandan başlayıb, 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə gəldikdən sonra respublikamızı yaradılmasının 100-cü ildönümünü qeyd etdiyimiz Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etməklə dövlətçilik irsimizə, milli prinsiplərimizə, tariximizə sahib çıxdı. Ulu öndər güclü dövlət konseptini Azərbaycanın müstəqilliyi fəlsəfəsinin təməlinə qoya bildi, qüdrətli dövlətin yaradılması üçün iqtisadi yüksəlişlə birlikdə milli özünüdərki, milli mənlik şüurunun inkişafını təmin etdi. Məhz buna görə də Heydər Əliyev epoxası iqtisadiyyatdan tutmuş mədəniyyətədək müxtəlif sahələrdə milli yüksəliş epoxası kimi tarixə düşdü.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli Sərəncamına əsasən bu il görkəmli dövlət xadiminin anadan olmasının 95-ci ildönümü muxtar respublikamızda geniş qeyd olunub, silsilə tədbirlər, idman yarışları və konsert proqramları keçirilib.

Tədbirlər Planına uyğun olaraq mayın 3-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Türkiyə Respublikasının Bursa Dövlət Simfonik Orkestri ulu öndərin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konsert proqramı ilə çıxış edib.

Konsert proqramı başa çatdıqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov səhnə arxasına keçərək Bursa Dövlət Simfonik Orkestrinin üzvləri ilə görüşüb, onları uğurlu konsert proqramına görə təbrik edib, konsertin təşkilatçılarına təşəkkürünü bildirib, Bursa Dövlət Simfonik Orkestrini yenidən Naxçıvana konsertə dəvət edib.

Hər il muxtar respublikada 1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qazanılan tarixi Qələbənin ildönümü müxtəlif tədbirlərlə qeyd olunur. Çünki həmin dövrdə müttəfiq respublikalar içərisində ən çox insan itkisinə məruz qalan, Qələbəyə misilsiz töhfəsini verən ölkə məhz Azərbaycan olub. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınıb. Göstərdikləri igidliklərə görə 3 həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, bir nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi, müharibə iştirakçılarından 600-ə yaxını isə orden və medallarla təltif olunub.

Mayın 9-da Ali Məclisin Sədri Naxçıvan şəhərindəki Xatirə kompleksinə gələrək müharibə veteranları ilə görüşüb, onları İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 73-cü ildönümü münasibətilə təbrik edib.

Ali Məclisin Sədri kompleksdəki abidənin önünə gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə dərin ehtiramını bildirib.

Mayın 10-da Ali Məclisin Sədri müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

Həmin gün Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş rəsm sərgisinə baxıb.



Muxtar respublikada iqtisadiyyatın diversifikasiyası bu gün diqqət mərkəzində saxlanılır, sahibkarlığın inkişafına hərtərəfli qayğı göstərilir. Müasir istehsal sahələri fəaliyyətə başlayır, yeni iş yerləri açılır, tələbat, əsasən, daxili imkanlar hesabına ödənilir. Mayın 14-də "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış tam avtomatlaşdırılmış plastik boru, profil və aksesuarların istehsalı müəssisəsinin fəaliyyətə başlaması da muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən qayğının növbəti təzahürüdür.

Müəssisənin açılışında iştirak edən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə etdiyinə və yeni sənaye müəssisəsinin fəaliyyətə başlamasına görə sahibkara və kollektivə təşəkkür edib. Ali Məclisin Sədri müəssisədə keyfiyyətli məhsul istehsal olunacağına əminliyini bildirib, kollektivə işlərində uğurlar arzulayıb və istehsal prosesi ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfər etməsi və 135-dən çox müxtəlif təyinatlı mühüm əhəmiyyətə malik obyektin açılışında iştirakı da Naxçıvanın sürətli sosial-iqtisadi tərəqqisinin bariz nümunəsidir. Bu mənada, mayın 16-da dövlətimizin başçısının Naxçıvan Muxtar Respublikasına növbəti səfəri də əlamətdar hadisələrlə yadda qalıb. Həmin gün dövlətimizin başçısı "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin, Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının, Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksinin, Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 nömrəli tam orta məktəbin, Ümumqoşun Ordunun "N" hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirak edib. Ölkə rəhbəri Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə, eyni zamanda Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində silahlanmaya yeni qəbul edilən hərbi texnikalarla, Təlim-Tədris Mərkəzi ilə də tanış olub.

Prezident cənab İlham Əliyev muxtar respublikamızda görülən işləri yüksək qiymətləndirərək deyib: ***"Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm".***

Muxtar respublikamızın bütün sahələr üzrə yüksək nailiyyətlər əldə etməsi, onun dünyanın müxtəlif inkişaf etmiş ölkələri ilə iqtisadi-mədəni əlaqələrini genişləndirməsinə şərait yaradır. Xarici ölkələrin diplomatik korpusunun nümayəndələrinin muxtar respublikaya səfərləri zamanı bu məsələlər həmişə diqqət mərkəzində olur.

Mayın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İsveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım İnqrid Tersman ilə görüşüb. Səfiri Naxçıvanda görməyindən məmnunluğunu bildirən Ali Məclisin Sədri deyib ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan-İsveç əlaqələrində iştirak edir, Naxçıvan Dövlət Universiteti isə TEMPUS və ERASMUS proqramları çərçivəsində İsveç universitetləri ilə əməkdaşlığa malikdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının xarici ölkələrlə əlaqələrindən və mövcud əməkdaşlıq imkanlarından bəhs edən Ali Məclisin Sədri yeni texnologiyaların tətbiqi, turizm və digər sahələrdə əməkdaşlıq üçün potensialın olduğunu bildirib.

Qürurla deyə bilərik ki, ötən illər ərzində böyük zəhmətlə, vətənpərvərliklə görülən genişmiqyaslı işlər, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikamız bu gün mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi şöhrət qazanıb. Bu sırada beynəlxalq rəsm festivalları özünəməxsus yerə malikdir. Çünki bir diyarın tanıdılmasında sənət və rəsm əsərləri xüsusi rol oynayır. Bu mənada, 21-24 may tarixlərində Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalının keçirilməsi böyük əhəmiyyət kəsb edir. Festivalın yüksək səviyyədə keçirilməsi və yaradılan şərait bütün sənətsevərlər tərəfindən sənətə və sənət adamlarına göstərilən qayğı kimi dəyərləndirilir.

Mayın 24-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılıb.

Ali Məclisin Sədri sərginin açılışında iştirak edib, festivalda iştiraklarına görə rəssamlara təşəkkürünü bildirib. Ali Məclisin Sədri deyib: ***"Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalının keçirilməsi əlamətdar hadisədir. Ona görə ki, festival Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 95 illiyinə həsr olunub... Müxtəlif ölkələrin rəssamlarının Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ümummilli liderimizin 95 illiyinə həsr olunmuş beynəlxalq rəsm festivalında birləşərək bir məram və məqsəd naminə əsərlər yaratması festivalın əhəmiyyətini daha da artırdı. Festivalda iştirak edən rəssamlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik tədbirlərinə öz töhfələrini verdilər".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması haqqında imzaladığı Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 25 yanvar tarixli Sərəncamına əsasən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı" təsdiq olunub.

Mayın 28-də Naxçıvan şəhərinin baş meydanında – Heydər Əliyev Muzeyinin qarşısında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Yubiley tədbirində iştirak edən Ali Məclisin Sədri milli dövlətçilik tariximizdə mühüm mərhələ təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə tədbir iştirakçılarını, muxtar respublika əhalisini, müstəqilliyimizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublika ərazisindəki ordu və birləşmələrinin şəxsi heyətini təbrik edib.

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın istiqlal tarixinin şanlı səhifəsi olduğunu, milli hökumətimizin keçdiyi şərəfli yolun gələcək müstəqil dövlətçilik üçün mühüm siyasi və tarixi əsas yaratdığını vurğulayan Ali Məclisin Sədri deyib: ***"Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yeri və rolundan bəhs edərkən onun Naxçıvanla əlaqələrinə xüsusi nəzər yetirmək lazımdır. Çünki o dövrdə Naxçıvan həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif maraqların toqquşduğu ərazilərdən birinə çevrilmişdi. Ermənilərin Naxçıvana hücumları isə vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti və parlamenti Naxçıvanla bağlı bir sıra məsələləri diqqətdə saxlayır, hökumətin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri bununla bağlı səmərəli və işgüzar fəaliyyət göstərirdilər. Lakin reallıq bundan ibarət idi ki, mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin Azərbaycanla bir olmaq arzusunu həyata keçirməyə imkan vermirdi. Böyük dövlətlərin təsiri ilə qədim Azərbaycan torpaqları olan Zəngəzurun və İrəvanın Ermənistana verilməsindən sonra Naxçıvan Muxtar Respublikasının indiki ərazisi təcrid olunmuş vəziyyətə düşmüş, Azərbaycanın əsas ərazisi ilə əlaqə kəsilmişdi. Belə bir vəziyyətdə – 1918-ci ilin noyabrında Naxçıvanda yaradılmış Araz Türk Cümhuriyyəti Naxçıvanın Ermənistan daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını aldı və tarixi Azərbaycan torpaqlarını qoruyub saxladı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan məsələsində tutduğu mövqe və ərazinin qorunması ilə bağlı Naxçıvan sakinlərinin mütəşəkkil siyasi iradəsi sonrakı dövrdə Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm əhəmiyyət kəsb etmişdir".***

Sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə yürüş keçirilib. Azərbaycan Respublikasının Dövlət Bayrağını daşıyan "Bayraq" qrupunun nizami addımları ilə yürüşə start verilib.

Ulu öndərimiz Heydər Əliyev ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsində, milli və dini dəyərlərin qorunmasında misilsiz xidmətlər göstərib. Dahi şəxsiyyət İslam dininin mahiyyəti, onun mütərəqqi, qüdrətli bir din olduğu və Azərbaycan xalqının həyatında mühüm rol oynadığını həmişə xüsusi vurğulayıb. Görkəmli dövlət xadiminin milli və dini-mənəvi dəyərlərimizin qorunması və onların təbliği istiqamətində həyata keçirdiyi məqsədyönlü dövlət siyasəti bu gün muxtar respublikamızda uğurla davam etdirilir.

Mayın 29-da Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə iftar süfrəsi açılıb.

İftar mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə və dini mərasimlərimizə xüsusi ehtiramla yanaşan ümummilli liderimiz Heydər Əliyevin ***"Xalqımızın dini-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim milli sərvətimizdir"*** fikrini xatırladaraq deyib: ***"Ən ali dini dəyərlərimizdən biri də mübarək Ramazan ayıdır. İlahi hikmətlər xəzinəsi olan "Qurani-Kərim"in nazil olduğu bu müqəddəs ay insanları əmin-amanlığa, bərabərliyə və savab işlərə dəvət edir. Dini dəyərlərə göstərilən ehtiramın nəticəsidir ki, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir".***

*May ayının ümumi mənzərəsinə nəzər yetirdikdə bir daha görürük ki, Naxçıvan Muxtar Respublikasında ulu öndərin təməlini qoyduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi, bütün dövlət proqramlarının, infrastruktur layihələrinin reallaşdırılması, lazımi islahatların vaxtında aparılması, irimiqyaslı quruculuq, abadlıq işlərinin gerçəkləşdirilməsi sənaye, kənd təsərrüfatı, mədəniyyət sahələri də daxil olmaqla bütün istiqamətlərdə yeni-yeni uğurların qazanılmasına rəvac verib. Naxçıvanda qazanılan uğurlar qədim diyarımızda çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılmasını, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasını, elmin, mədəniyyətin dinamik inkişafını təmin edib.*

**Rauf KƏNGƏRLİ**

Jurnalistin qeydləri

# İşğaldan azad edilən Şərurun Günnüt kəndində 26 il sonra oxunan Quran

*"Ədalət topaldır, yavaş-yavaş yeriyir, amma gedəcəyi yerə gec-tez çatır", – deyən fransız ictimai xadimi Qabriel Mirabo kimi mən də həmişə ədalətin zəfərinə qəlbən inanmışam. Ata-babalarımızın "haqq nazilər, ancaq üzülməz" kəlamı da min illərdir ki, ruhumuzda kök salıb.*

Hər şey ordan başladı ki, biz 2016-cı ilin aprel döyüşlərində ədalətin, haqqın, qələbənin ayaq səslərini eşitməyə başladıq. İllərdir, torpaqlarımızı işğal altında saxlayan Ermənistana layiqli dərs verildi: mühüm strateji yüksəkliklər, yaşayış məntəqələri, minlərlə hektar torpaq sahəsi ordumuzun nəzarətinə keçdi. Əsası ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qoyulan Milli Ordumuzun böyük taktiki və texniki gücü, döyüş bacarığı, müasir silah və texnikaları Lələtəpəyə sancılan üçrəngli bayraqda, işğaldan azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində inşa olunan Şuşa məscidində öz əksini tapdı.

### 17 oktyabr 2017-ci il

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvanda ilk Milli Hərbi Hissənin yaradılmasının 25-ci ildönümü münasibəti ilə hərbi parad keçirilir. Yüzlərlə müasir silah və texnika, raket və artilleriya sistemləri, döyüş təyyarələri, "Sakarya", "Smerç" kimi uzaqvuran raketlər, ayaqlarının səsi yeri-göyü titrədən xüsusi təyinatlılar meydandan keçir.

Həmin gün "Şərq qapısı" qəzetində dərc edilən "Buluddağıdan toplardan "Sakarya" və "Smerç"lərə qədər" sərlövhəli məqaləmdə bir fikri xüsusi vurğulamışdım: *"İnanın, bugünkü paradda şəxsi heyətə və döyüş texnikalarına "dur" komandası verilməsəydi, onlar qədim şəhərimizə – İrəvana qədər gedib çıxardılar. Bax budur iş, budur qurub-yaratmaq eşqi, budur vətənpərvərliyin Naxçıvan nümunəsi!"*

### May 2018-ci il

Naxçıvan Muxtar Respublikasına növbəti dəfə səfər edən Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində yeni xəstəxananın açılışını etdi, əsgəri-məişət kompleksi, Təlim-Tədris Mərkəzi, İdman şəhərciyi ilə tanış oldu. Görülən işləri yüksək qiymətləndirən Ali Baş Komandan Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdə dedi: ***"Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda uğurlu əks-hücum əməliyyatı keçirə bilər".***

Ali Baş Komandanın bu açıqlamasından ciddi narahatçılıq duyan işğalçı Ermənistan az sonra Əlahiddə Ümumqoşun Ordunun Qarsda keçirilən Türkiyə-Azərbaycan birgə döyüş atışlı taktiki təlimlərini məyusluqla izlədi və dərhal da Şərur-Sədərək istiqamətində növbəti təxribata əl atdı. Cavab isə qəti və çox sərt oldu…

### Ötən əsrin 90-cı illəri

Azərbaycanımızın digər bölgələri kimi, muxtar respublikanın Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri də aramsız düşmən hücumlarına məruz qalırdı. Məqsəd Naxçıvanı bütövlükdə işğal etmək idi. Şərur rayonunun mərkəzindən 22 kilometr uzaqda yerləşən Günnüt kəndi də elə həmin vaxt – 1992-ci ildə işğala məruz qalmışdı. Erməni vandalları kəndi xarabalığa çevirərək, yaşayış evlərini, məktəbi, tibb məntəqəsini, hətta xalqımıza məxsus izləri itirmək üçün qəbiristanlığı və məscidi də dağıdıb yerləyeksan etmişdilər. Qəbir daşları güllələnmiş, bəzi qəbirlərə isə mina basdırılaraq partladılmışdı. Kənd camaatı isə rayonun digər yaşayış məntəqələrinə, əsasən də, Mahmudkəndə köçməyə məcbur olmuşdu.



### 26 il sonra

Erməni mediası və saytlarının məlumatları, eləcə də "razm.info armenia" portalının videoreportajında da qeyd edildiyi kimi, mayın son günlərində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilib. Bununla da, ordumuz daha əlverişli mövqelərə sahiblənib, "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi , daha sonra isə "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (ermənilər adını dəyişdirərək "Areni" qoyublar) nəzarət altına keçib. Ümumilikdə, 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bu ərazinin isə 8 min hektardan artığı əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir. Şərur rayonunun Günnüt kəndini nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi və təminat məqsədilə 50 kilometr yeni yol çəkilmiş, 50 kilometrdən artıq yararsız yollar isə bərpa edilmişdir. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının Taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulmuşdur. (Yeri gəlmişkən torpaq su ilə suvarılanda palçıq, qan ilə suvarılanda VƏTƏN olur. Bu əməliyyatlarda düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olan əsgərimiz Adil Tatarovun, eləcə də 1992-ci ildə Günnütün müdafiəsində şəhid olan "Əlibaba" ləqəbli qəhrəmanımız Asəf Rəhimovun xatirəsini ehtiramla yad edir, şəhidlərimizin ruhu qarşısında baş əyirəm).





Artıq dünən 26 illik həsrətə son qoyulub. Mahmudkənddə məskunlaşan günnütlülər uzun illərdir, həsrət qaldıqları doğma kəndlərinə qayıdaraq əzizlərinin məzarını ziyarət edib, bunu böyük sevinc və qürurla qarşılayıblar. Kənd qəbiristanlığında uyuyan günnütlülərin və şəhidlərimizin ruhlarına dualar edilib, məzarların üzərinə tər güllər düzülüb. Kəndin qəbiristanlığında 26 il sonra Quran oxunub, ulu babalarımızın 30 ilə yaxındır nigarançılıqda qalan narahat ruhları dinclik tapıb.

Ən böyük hünər və qəhrəmanlıqlar Vətən naminə edilib. Günnüt qələbəsi də Vətən uğrunda mübarizəmizin ən ali zirvələrindəndir. O zirvədən Qarabağa, Şuşaya doğru dalğalanan üçrəngli bayrağımız isə böyük qələbəmizin soraqçısıdır. Bu qələbə həm də qüdrətli Azərbaycan Ordusunun 100 illik yubileyinə ən layiqli töhfədir.

Qeyd etməyi özümə borc bilirəm ki, Naxçıvan Televiziyası illər sonra Günnütdən ilk yayımını gerçəkləşdirib. Naxçıvan Dövlət Televiziyasının əməkdaşları Səməd Canbaxşiyev və Lalə Hüseynova sakinlərin kəndə gəlişi və kəndin indiki vəziyyətini əks etdirən reportaj hazırlayıblar.

Günnüt sakinləri Məhəddin Cavadovun, Hacı Nəsib Novruzovun və Fikrət Məmmədovun kənd qəbiristanlığında Naxçıvan Televiziyasına verdikləri müsahibədən: *"Bu sevinc və qürur hisslərini bizə yaşatdığına görə Azərbaycan Ordusu ilə fəxr edirik. 26 il əvvəl kəndimizi tərk etmək məcburiyyətində qaldıq. Bu gün isə biz böyük fəxr hissi ilə öz ata-baba yurdumuzda doğmalarımızın məzarlarını ziyarət edirik. Uzun illərdən sonra bizə bu cür imkan yaradılmasını sözlə ifadə etmək çətindi. Biz bu gün öz ata yurdumuzda doğmalarımızın məzarını ziyarət edib, onların ruhuna dualar oxuduq. Uzun illərdir, kənd qəbiristanlığına gedib gələ bilmirdik. Biz ordumuzla, Ali Baş Komandanımızla fəxr edirik. Prezidentimiz cənab İlham Əliyevə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımızı bildiririk".*

### 1920-1929-cu illər: Yaxın tarixi heç vaxt unutmayaq

Əvvəlcə İrəvan xanlığının, ötən əsrin 20-ci illərində isə Zəngəzurun işğalından sonra Naxçıvan ölkəmizin əsas ərazisindən ayrı düşdü. Həmin vaxtlar Azərbaycanın da daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları Mərkəzi İcraiyyə Komitəsinin 18 fevral 1929-cu il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının on kəndi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qarsevən kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi, başqa sözlə desək, 657 kvadratkilometr Azərbaycan ərazisi Ermənistana verildi. Bu zaman beynəlxalq hüquq normalarına məhəl qoyulmadı, Naxçıvanın ərazi bütövlüyünün qarantı olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars müqavilələrinin şərtləri kobud surətdə pozuldu. 1929-cu ildən etibarən bu kəndlərdə yaşayan müsəlman-türk əhaliyə qarşı deportasiya siyasəti həyata keçirildi, nəticədə, həmin kəndlərin əhalisinin çox hissəsi tədricən öz dədə-baba torpaqlarını tərk edərək Azərbaycana və keçmiş ittifaqın digər yerlərinə köçməyə məcbur olub. Erməni təqiblərinə, hədə-qorxularına baxmayaraq, bu kəndləri tərk etməyərək orada qalan sonuncu azərbaycanlılar isə 1988-ci ildən sonra başlayan işğalların fonunda öz yurd-yuvalarını tərk etməyə məcbur oldular.

***Günnüt kəndindən ilk reportajı yayımlamaq şərəfini, qürur və sevincini bizə yaşatdıqlarına görə Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Muxtar Respublikanın Təhlükəsizlik Şurasının Sədri cənab Vasif Talıbova Naxçıvan teleradiosunun bütün kollektivi adından dərin minnətdarlığımızı bildiririk.***



Müdriklər deyirlər: *"Ən böyük intiqam uğur və qələbədir. Bu, sizin düşmənlərinizi məhv edər"*. LƏLƏTƏPƏ, COCUQ MƏRCANLI, GÜNNÜT qələbələrimiz mübarək! Ardını Laçında, Şuşada görmək inamı ilə…

***Yaşasın Azərbaycan, Yaşasın Naxçıvan, Yaşasın qüdrətli Ordumuz!!!***

**Sahil TAHİRLİ**
**jurnalist**

# Naxçıvan dünya rəssamlarının gözü ilə

*“Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının sərgisindən*



Lela Geleişvili



Nilufər İnaltong



Yuliya Suxovetskaya



Hülya Sezgin



Bəhruz Kəngərli



Vahit Akan



Nik Anikis

## *“Şahbuz Dövlət Təbiət Qoruğunun florası və bitki örtüyü”* mövzusunda interaktiv dərs





Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə nazirliyin tabeliyində olan muxtar respublikanın Ekoloji Tərbiyə Mərkəzində növbəti interaktiv dərs keçilib. Dərsi biologiya üzrə fəlsəfə doktoru, mərkəzin “Biomüxtəlifliyin qorunması” dərnəyinin rəhbəri Namiq Abbasov aparıb. “Şahbuz Dövlət Təbiət Qoruğunun florası və bitki örtüyü” mövzusunda keçilən dərs Heydər Əliyev adına Hərbi Liseyin kursantları və muxtar respublikanın 202 ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilib.

Dərsdə bildirilib ki, Azərbaycanda ekologiyaya dövlət səviyyəsində qayğı göstərilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin muxtar respublikaya rəhbərliyi dövründə əsasını qoyduğu təbiəti mühafizə tədbirləri bu gün doğma diyarımızda uğurla davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının flora biomüxtəlifliyi, onun ayrı-ayrı elementlərinin öyrənilməsi, nadir növlərin tədqiqi və qorunması diqqət mərkəzindədir.

Daha sonra məruzəçi Şahbuz Dövlət Təbiət Qoruğu florasının faydalı bitkiləri barədə məlumat verib.

Bildirilib ki, qoruğun florasında bir sıra faydalı yabanı bitkilər yayılıb. Onlar arasında qida əhəmiyyətli bitkilər – cacıq, çaşır, əvəlik, ələyəz, quşəppəyi, baldırğan və digərləri də vardır.

Xalq təbabətində dərman bitkilərindən daha geniş istifadə olunduğunu qeyd edən Namiq Abbasov muxtar respublika ərazisində 106 fəsilə və 436 cinsdə birləşən 722 növ dərman bitkisinin yayıldığını vurğulayıb və onlar haqqında ətraflı məlumat verib.

Sonda qeyd olunub ki, hamı doğma diyarımız Naxçıvanın təbii sərvətlərindən səmərəli istifadə etməli, təbiətimizi qorumalı, onun qayğısına qalmalıdır.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Şahmat turniri keçirilib

Babək Rayon Gənclər və İdman İdarəsinin, Təhsil Şöbəsinin və Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında Uşaq-gənclər şahmat məktəbinin şagirdləri arasında şahmat turniri keçirilib.

Yekun nəticələrə əsasən Əli Əliyev və Firuzə Əliyeva turnirin qalibləri olublar. Qulu Fətullayev və Zəhra Abbasova II, Fuad Tarverdiyev və İlkin Süleymanlı isə III yerə layiq görülüblər.

Qaliblərə təşkilatçıların diplomları təqdim olunub.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

## Gənc alim ixtirasına görə diplom və mükafata layiq görülüb


PATENT VƏ ƏMTƏƏ NİŞANLARI MƏRKƏZİ

DİPLOM

HƏVƏSLƏNDİRİCİ YER

İXTİRAÇILIQ SAHƏSİNDƏ BEŞİNCİ RESPUBLİKA MÜSABİQƏSİ

İ 2016 0118 nömrəli patent

İXTİRANIN ADI: Tomsonit tipli seolitin alınma üsulu

PATENT SAHİBİ: AMEA-nın Naxçıvan Bölməsi

MÜƏLLİFLƏR: Məmmədova Günel Aslan qızı

BAŞ DİREKTOR GÜNEL SEVDİMALIYEVA

BAKI 2018

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədovanın “Tomsonit tipli seolitin alınma üsulu” ixtirası Patent və Əmtəə Nişanları Mərkəzi tərəfindən keçirilən ixtiraçılıq sahəsində V respublika müsabiqəsinin diplom və mükafatına layiq görülüb.

Qeyd edək ki, dünyanın bir neçə ölkəsinin elm ocaqları ilə əməkdaşlıq edən Günel Məmmədova seolitin tədqiqi sahəsindəki xidmətlərinə görə Rusiya Federasiyasının Təbiətşünaslıq Akademiyasının professoru adına layiq görülüb. Onun Rusiyanın “Novıy Universitet” (“Yeni Universitet”) və “American Journal of Modern Physics” (“Müasir fizikanın Amerika jurnalı”) və “İnorganicchemistry” (“Qeyri-üzvi kimya”) beynəlxalq jurnallarının redaksiya heyətinə üzv seçilib. Gənc alimin bir neçə məqaləsi ABŞ-ın nüfuzlu “Glass Physics and Chemistry” (“Şüşənin fizikası və kimyası”) jurnalında rus və ingilis dillərində işıq üzü görüb. Onun “Mürəkkəb alümosilikatlarda termal və hidrotermal çevrilmələr” və “Müxtəlif quruluş tipli seolitlərin hidrotermal sintezi” monoqrafiyaları Almaniyada Lambert Akademik Nəşriyyatı tərəfindən nəşr edilib.

Günel Məmmədova seolitlər sahəsindəki nailiyyətlərinə və nüfuzlu elmi jurnallarda dərc olunmuş məqalələrinə görə bu günlərdə Beynəlxalq Seolit Assosiasiyasına da üzv seçilib.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*

**İtmişdir**

Hacıyev Əli İlqar oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 429